


# Sürətlə dəyişən demoqrafik göstəricilər və qlobal çağırışlar

**Dünya əhalisinin demoqrafik mənzərəsi heç vaxt sabit olmayıb, müxtəlif sosial, iqtisadi və ekoloji faktorların təsiri ilə dəyişikliklərə məruz qalıb. Xüsusilə son iki yüz ildə bu daha dinamik xarakter alıb və artıq XXI əsrdə demoqrafik artım müşahidə olunur. Demoqrafik partlayış adlandırılan proses bəşəriyyətin üzərinə düşən bioloji, iqtisadi və ekoloji yükün artması deməkdir. Kapitalizmdən əvvəlki dövrlərdə əhali artımı son dərəcə yavaş templə gedirdi. Bu, əsasən yüksək ölüm səviyyələri, qıtlıq, müalicə olunmayan xəstəliklər, uzunmüddətli müharibələr və aşağı gigiyenik şəraitdən qaynaqlanırdı.**

Məsələn, orta əsrlərdə Avropa əhalisinin bir neçə dəfə azalmasına səbəb olan qara ölüm (vəba) kimi epidemiyalar geniş yayılmışdı. Bu dövrlərdə əhali artımı üçün əsas şərt olan uşaq doğumunun yüksəkliyi belə ümumi artımı kompensasiya edə bilmirdi. Lakin Sənaye inqilabından və tibb elminin inkişafından sonra ölüm səviyyəsi əhəmiyyətli dərəcədə azalmağa başladı. Bu transformasiya qlobal əhali artımında kəskin sıçrayışa gətirib çıxardı. Statistikaya əsasən, 1900-cü ildə dünya əhalisi cəmi 1,6 milyard idisə, 1960-cı ildə bu rəqəm 3 milyarda, 2000-ci ildə isə 6 milyarda çatdı. 2022-ci ilin noyabrında isə Yer kürəsində yaşayan insanların sayı 8 milyardı keçdi. Birləşmiş Millətlər Təşkilatının (BMT) Əhali Fondu və demoqrafik mərkəzlərin proqnozlarına görə, əgər bu sürətli artım davam edərsə, 2040-cı ilə qədər dünya əhalisinin 10 milyarda çatması ehtimal olunur. Bu rəqəmlər enerji tələbatından ərzaq təminatına, urbanizasiyadan su resurslarının tükənməsinə qədər müxtəlif sahələrdə qlobal balansın pozulması təhlükəsini ehtiva edir.

1989-cu il iyulun 11-də BMT-nin Əhali Fondu tərəfindən təsis edilən Ümumdünya Əhali Günü təsadüfi tarix deyil. Bu günün qeyd olunmasında məqsəd artımın doğurduğu sosial, iqtisadi və hüquqi problemlərə diqqət çəkməkdir. Fərdi sağlamlıq, qadınların reproduktiv hüquqları, ailə planlaşdırılması, gender bərabərliyi, yoxsulluğun aradan qaldırılması kimi fundamental mövzular bu günün əsas təməl sütunlarını təşkil edir. Çünki müasir dövrdə bir çox dövlətlərin qarşısında duran mühüm vəzifələrdən biri də demoqrafik vəziyyətin düzgün idarə edilməsidir.

Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (UNFPA) tərəfindən dərc olunan "2023-cü ildə dünya əhalisinin vəziyyəti" adlı hesabat, qlobal demoqrafik mənzərənin sürətləndiyini və bunun yalnız statistika ilə deyil, həm də sosial, iqtisadi və siyasi təsirlərlə müşayiət olunduğunu ortaya qoyur. Hesabatın əsas məqamlarından biri dünya əhalisinin tarixi artım tempidir. Artım ilk baxışda insan potensialının yüksəlişi kimi dəyərləndirilsə də, hesabatda yer alan təhlillər göstərir ki, əhali artımı bərabər paylanmır və bu səbəbdən qeyri-sabit regional balanslar, resurs böhranları, miqrasiya axınları və sosial gərginliklər kimi yeni problemləri də gündəmə gətirir.

Hazırda əhali sayına görə Hindistan 1 milyard 600 milyon nəfərlə dünyanın ən çox əhalisi olan ölkəsidir. Çin ikinci sıradadır (1 milyard 425 milyon nəfər), onu isə ABŞ izləyir (340 milyon nəfər). Bu sıralama gələcəkdə iqtisadi və geosiyasi qüvvə mərkəzlərinin dəyişməsi üçün siqnaldır. Ən çox diqqətçəkən məqam isə Çindəki əhali azalmaları ilə bağlıdır. Belə ki, bu ölkədə 2021-ci ildə əhalinin sayı 1 milyard 412 milyon idisə, 2022-ci ildə bu rəqəm 200 min nəfər azalaraq 1 milyard 411 milyon 800 minə düşüb. Bu, Çin tarixində qeydə alınan ən aşağı doğum göstəricisidir. Əhali azalması yaşlı nəsil və azalan işçi qüvvəsi ilə müşayiət olunduğundan dəyişikliklərin Çin iqtisadiyyatına, daxili bazara və sosial sistemə ciddi təsir göstərəcəyi proqnozlaşdırılır. Hesabata əsasən, gələcəkdə əhali artımı əsasən 8 ölkədə qeydə alınacaq: Hindistan, Pakistan, Nigeriya, Efiopiya, Misir, Konqo Demokratik Respublikası, Tanzaniya və Filippinin. 2050-ci ilə qədər dünya bu ölkələrin əhalisinin yarısını təşkil edəcəyi gözlənilir. Həmin ölkələrin əksəriyyəti Afrika və Asiya qitəsində yerləşir və bu qlobal iqtisadi və sosial çəkinin gələcəkdə həmin regionlara yönələcəyindən xəbər verir. Bu fakt eyni zamanda, inkişaf etməkdə olan ölkələrdə urbanizasiya, təhsil, səhiyyə, gender bərabərliyi və ətraf mühitin qorunması sahələrində daha güclü dövlət siyasətlərinin aparılmasının zəruriliyini ortaya qoyur. Əgər artım yaxşı idarə olunmasa, yoxsulluq, işsizlik, resurs çatışmazlığı kimi sosial gərginliklərin dərinləşməsi qaçılmaz olacaq. Bolqarıstan, Litva, Latviya, Serbiya və Ukrayna əhalisinin sürətlə azalacağı proqnozlaşdırılır. Bu ölkələrdə doğum səviyyəsinin aşağı olması, miqrasiya axınlarının artması və yaşlı əhali nisbətinin yüksəlməsi nəticəsində gələcəkdə əmək bazarının daralması, pensiya sistemlərinin çöküşü və iqtisadi dinamizmin zəifləməsi kimi ciddi problemlər gözlənilir. Hesabatda orta insan ömrü ilə bağlı maraqlı faktlar da yer alır. Belə ki, dünya üzrə kişilərin orta ömür müddəti 71, qadınların isə 76 yaş təşkil edir. Bu rəqəmlər son onilliklər ərzində tibbi xidmətlərin və həyat şəraitinin yaxşılaşmasının nəticəsi olsa da, sosial və cins bərabərsizliyinə də işarə edir. Qadınların ömrü daha uzun olsa da, həyat keyfiyyəti, təhsil və iqtisadi imkanlara çıxış baxımından fərqlər hələ də qalmaqdadır.

Əhalinin rifahı, sağlamlıq göstəriciləri, doğum və ölüm səviyyələri, nikah və boşanma dinamikası, miqrasiya axınlarının tənzimlənməsi və yaş strukturu kimi komponentlər ölkənin gələcək sabitliyinin, sosial təhlükəsizliyinin və davamlı inkişaf potensialının əsas sütunlarıdır. Azərbaycanın demoqrafik mənzərəsi bu baxımdan diqqətçəkən nümunə kimi qiymətləndirilə bilər. Son illərdə ölkəmizdə demoqrafik göstəricilərin müsbətə doğru dəyişməsi ilk növbədə ölüm səviyyəsinin azalması, uzunömürlülük meyillərinin artması və tibbi xidmətlərin əlçatanlılığı ilə izah olunur. Əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən dövlət proqramları və regionlarda icbari tibbi sığortanın tətbiqi bu sahədə dönüş nöqtələrindən biridir. Proseslər təkcə orta ömür uzunluğunu artırmayıb, həm də həyat keyfiyyətinin yüksəlməsinə təkan verib. Bununla yanaşı, nikah və boşanma münasibətlərinin tənzimlənməsi, ailə institutunun sosial müdafiəsinin gücləndirilməsi və gender bərabərliyi prinsiplərinin təşviqi cəmiyyətin mənəvi dayanıqlılığı baxımından strateji əhəmiyyət daşıyır.

Azərbaycan müstəqillik dövründə bir sıra miqrasiya dalğaları ilə üz-üzə qaldı. Bu, həm siyasi təzyiqlərin (1990-cı illərdəki Qarabağ münaqişəsi və Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti), həm də sosial-iqtisadi faktorların nəticəsi idi. Ona görə də miqrasiya sahəsində hüquqi və institusional islahatlar zəruri idi. Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul edilən Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı və həmin proqramın davamı olaraq yaradılan Dövlət Miqrasiya Xidməti ölkədə bu sahədə sistemli və strateji yanaşmanın formalaşmasına zəmin yaratdı. Miqrasiyanın tənzimlənməsi təkcə sərhədlərin qorunması və qeyri-qanuni axınların qarşısının alınması ilə bağlı deyil. Bu, həm də əmək bazarının balanslaşdırılması, yüksəkixtisaslı kadrların cəlb edilməsi və demoqrafik strukturun optimallaşdırılması ilə sıx bağlıdır. Beləliklə, düzgün yönləndirilmiş miqrasiya siyasəti ölkənin iqtisadi dinamikasını sürətləndirə, demoqrafik təzyiqləri isə azalda bilər. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ölkə əhalisinin sayı 2024-cü ilin əvvəlindən 2891 nəfər və ya 0,03 faiz artaraq 2024-cü il fevral ayının 1-i vəziyyətinə 10183661 nəfər təşkil edib. Bu artım ilk baxışda kiçik görünsə də, əhali dinamikasının sabitliyi və mövcud resursların dayanıqlı istifadəsi baxımından mühüm göstəricidir. Demoqrafik inkişaf ekoloji cəhətdən təhlükəsiz və iqtisadi cəhətdən sabit bir mühütdə möhkəmlənməlidir. Azərbaycanın "yaşıl inkişaf" kursu, alternativ enerji layihələri və ərzaq təhlükəsizliyi sahəsindəki strategiyalar həm əhalinin ehtiyaclarını qarşılayacaq, həm də gələcək nəsillər üçün sağlam mühitin qorunmasına xidmət edəcək. 2005-ci ildən başlayaraq Azərbaycanda da qeyd olunan Ümumdünya Əhali Günü demoqrafik məsələlərin yalnız statistik göstəricilər çərçivəsində deyil, həm də insan hüquqları, gender bərabərliyi, ailə dəyərləri və dayanıqlı inkişaf kontekstində müzakirə olunmasının vacibliyini gündəmə gətirir. Bu gün bizə bir daha xatırladır ki, əhali artımı təkcə fiziki göstərici deyil, bir xalqın potensialı, gələcək arzuları və inkişaf strategiyalarının istiqamətvericisidir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika.- 2025.- 11 iyul (№ 140).- S.11.